**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**«Təsdiq edirəm»**
**filologiya fakültəsinin dekanı**
**dos. M.T.Vəliyev**
**15 dekabr 2015**

**Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının**
**elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında**

# H E S A B A T I

**BAKI – 2015**

## 1. GİRİŞ.

Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müəllimləri dərs yükü ilə yanaşı, hər il elmi-tədqiqat işlərini yerinə yetirirlər. Həmin elmi işlər Azərbaycan folklorunun aktual problemləri üzrə üçillik plan şəklində müəllimlər arasında bölünmüşdür. Bölüşdürülmə aşağıdakı strukturu əhatə edir.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ:

1. S.H.Orucova – f.ü.e.d, professor – 1971-ci ildə anadan olmuşdur
2. N.Q.Xəlilov – f.ü.e.d., dosent – 1949-ci ildə anadan olmuşdur
3. E.Ə.Talıblı – f.ü.f.d., dosent – 1958-ci ildə anadan olmuşdur
4. M.M.Məmmədov – f.ü.f.d., dosent – 1963-cü ildə anadan olmuşdur
5. K.F.İslamzadə – f.ü.f.d., dosent – 1967-ci ildə anadan olmuşdur
6. Ü.A.Nəbiyeva – f.ü.f.d., dosent – 1974-cü ildə anadan olmuşdur
7. K.K.Həsənova – f.ü.f.d., 0,5 ştat – 1976-cı ildə anadan olmuşdur
8. B.H.Əsgərov – f.ü.f.d., 0,5 ştat əvəzçi – 1981-ci ildə anadan olmuşdur
9. L.F.Ələkbərova – böyük laborant – 1970-ci ildə anadan olmuşdur

## 3. KAFEDRALARDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI, YERİNƏ YETİRİLMƏSİ.

2015-ci ildə Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının əməkdaşları **«Azərbaycan epik folklorunun janrları və onların xüsusiyyətləri»** adlı ümumi üçillik problemin 7 mövzusu – üzərində çalışıblar.

Planlaşdırılmış mövzulardan aşağıdakılar yerinə yetirilmişdir:

**İş «A»: «Azərbaycan folklorunun epik üslubun janrları »**

İcraçı: prof. S.H.Orucova

Mərhələ I: « **Azərbaycan nağıllarının təsnifi prinsipləri»**

Nağıllar xalq nəsrinin müəyyən təhkiyə prinsipinə əsaslanır, eləcə də böyük bir dövrün geniş epik lövhəsini, yaxud hər hansı fərdin həyatının müəyyən bir anını, məqamını əks etdirir. Buradakı hadisələrin təsvirində nəqletmə əsasdır. Azərbaycan nağılları həm məzmun, həm də sayca zəngin və rəngarəngdir. Nağılların təsnifində də müxtəlif fikirlər vardır. İlk dəfə nağılların təsnifinə təşəbbüs göstərən alman alimi Han olmuşdur, o, yunan və alman nağılları əsasında 40-a yaxın nağıl süjetinin sxemini düzəltmişdir. Daha sonra rus alimi P.V.Vladimirov nağılları 3 qrupa bölmüşdür.

İstər Han, istərsə də Vladimirovun bölgülərində nağıl süjetləri ilə nağıl motivləri qarışdırılmışdır. Lakin bu sahədə ilk dəfə mükəmməl təsnifat aparan fin alimi Anti Aarne olmuşdur. Onun təsnifi dünya folklorşünaslığı tərəfindən qəbul edilmişdir. O, həmçinin Avropa xalqlarının da nağıllarından istifadə etmiş və öz kataloqunda bütün süjetlərin qısa izahını vermişdir.

Azərbaycan nağıllarının təsnifatı nağıl yaradıcılığında özünü göstərən bütün süjetləri fərqli spesifik xüsusiyyətlərinə uyğun tədqiqata cəlb etməyə daha geniş imkan yaradır.

**İş «B»: «XIX-XX yüzilliklərdə aşıq poeziyası və yazılı ədəbiyyat»**

İcraçı: dosent N.Q.Xəlilov

Mərhələ I: « **XX əsrin ortalarında (1950-1960) aşıq poeziyası və yazılı ədəbiyyat»**

XIX əsr aşıq poeziyası ilə yazılı ədəbiyyatın əlaqəsi məsələsi başqa yüzilliklərə nisbətən daha güclüdür. XX əsrdə bu əlaqə bir qədər başqa cür inkişaf edir. Əgər XIX əsrdə aşıq yaradıcılığı ilə yazılı poeziya forma və məzmunu baxımından daha çox bir-birini tamamlayırsa XX yüzillikdə formadan daha çox ideya diqqəti çəkir. XX əsrdə yaşamış M.Ə.Sabir, M.Ə.Möcüz, H.Cavid, A.Şaiq, M.S.Ordubadi və başqa sənətkarların yaradıcılığında bunu açıq hiss etmək olar.

XX əsr poeziyası ona görə tezliklə vətəndaşlıq hüququ qazandı ki, onun yaradıcıları folkora, daha doğrusu folklorun janrlarına xeyli əsaslanmışlar. Burada folklor janrları

dedikdə aşıq poeziyasını da nəzərdə tuturuq. Çünki XX əsr sənətkarları bəzən bir sıra janrlardan qovuşuq şəkildə istifadə etmişdilər. Bu da onların əsərlərini daha da xəlqiləşdirmişdir.

Bunu XX əsrdə yaşamış bir sıra şairlərin yaradıcılığında görürük. Onlar xalq yaradıclığı ilə bərabər aşıq poeziyasına daha çox müraciət etmişlər, xalq poeziyasının, aşıq yaradıcılığının üslubunu yaradıcı şəkildə inkişaf etdirmişlər.

Bu, XX əsr realist ədəbiyyatının görkəmli nümayəndələri M.Ə. Sabirin, Ə.Qəmqüsarlının və Cavidin yaradıcılığında bunu açıq şəkildə görunür.

**İş «C»: «XX əsr dünya folklorşünaslığı tarixi»**

İcraçı: dosent E.Ə.Talıblı

Mərhələ I: **«XX əsrin II yarısında Azərbaycan folklorşünaslığı»**

XX əsrin II yarısı Azərbaycan folklorşünaslıq elminin ciddi inkişaf etdiyi bir mərhələdir. Yeni folklorşünaslıq mərkəzlərinin yaranması, elmi-nəzəri nəşrlərin meydana çıxması, folklor toplanma işinin müasir elmi-metodoloji səviyyədə aparılması, çoxcildlik folklor toplularının nəşr olunması, tədqiqatlarda nəzəri səviyyənin artması milli folklorşünaslığımızın bu mərhələsinin öyrənilməsini aktuallaşdırır. Elmi tədqiqat işində folklorşünaslığımızın bu mərhələsində inkişaf meyillərinin, nailiyyətlərinin folklorşünaslıq tarixi baxımından öyrənilməsi, ümumiləşdirilməsi əsas tədqiqat məqsədi kimi qarşıya qoyulmuşdur.

Elmi işdə qeyd edilən mərhələ iki yarımmərhələyə (1950-70-ci illər və 1980-90-cı illər yarımmərhələləri) bölünərək, hər iki zaman kəsiyində Azərbaycan folklorşünaslığı ayrı-ayrılıqda dəyərləndirilmişdir. Araşdırma üç istiqamətdə aparılmışdır: folklorla bağlı qurumların – AMEA Ədəbiyyat İnstitutunun Folklor şöbəsinin, AMEA Folklor institutunun, BDU-nun Folklor kafedrasının elmi-təşkilati fəaliyyəti; tanınmış folklorşünasların elmi yaradıcılığı; və nəhayət, folklorla bağlı dövri elmi nəşrlərin elm qaşısında rolu. Hər bir istiqamət üzrə araşdırmalar nəticəsində ümumiləşdirmələr aparılmışdır. Folklorşünasların fəaliyyətindən danışarkən əsas tədqiqat problemlərinə ayrılıqda yanaşılmış, tədqiqatlardakı prioritetlər dəqiqləşdirilmişdir. Eposşünaslıq, mifologiya, folklor poetikası, folklor və yazılı ədəbiyyat, mərasim folkloru, aşıq

yaradıcılığı və s. sahələr üzrə tədqiqatlar elmi işdə təhlilə cəlb edilmişlər. Burada bir çox alimlərin (M.Təhmasib, M.Seyidov, P.Əfəndiyev, V.Vəliyev, İ.Abbaslı, A.Nəbiyev, B.Abdulla, M.Qasımlı və başqalarının) folklorşünaslıq irsinə elmi qiymət verilmişdir.

**İş «Ç»: «Azərbaycan mifik təfəkküründə kult və obrazlar»**

İcraçı: dosent M.M.Məmmədov

Mərhələ I: **«Azərbaycan mifoloji düşüncəsində dünya modeli»**

Dünya haqqında hər bir xalqın öz sisteminə uyğun dünya modeli, dünya mənzərəsi , öz etnik işarələr sistemi var.Yaradılış mifləri universal bir dünya təsəvvürü yaratsalar da , həmin dünya modelinin mərkəzində bəlli bir etnik-ənənə dayanır. Dünya modeli hər yerdə və hər zaman milli olması ilə səciyyələnir. Hər bir mifologiya dünya modelinin yaranmasını, quruluşunu izah edir.

Dünya modeli dünyanı obrazlaşdırma yolu ilə mənimsəyərək onu işarələr sisteminə çevirən mifoloji düşüncə tipi ilə bağlı hadisədir. Sistemliliyi ilə səciyyələnən dünya modeli etnik-mədəni sistemin ətraf aləmlə hər hansı əlaqəsini tənzimedir. Mifoloji mətn süjetlərinin əsasında dayanan həmin dünya modeli həmçinin, dünya obrazının düşüncədəki inikasıdır.

Diaxroniya və sinxroniyanın qırılmaz vəhdəti mifopoetik dünya modelinin daimi özəlliyidir. O, həmçinin özündə makrokosm və mikrokosmun eyniyyətini ehtivaedir. Mifologiya dünya modelində makrokosm və mikrokosm , təbiət və insan bir-birilə ən azı qarşılıqlı bağlılıqdadır. Burada hər şey kosmosla əlaqələnir. Mifopoetik dünya modeli baxımından hər bir insan topluluğu özünün dünya haqqında təsəvvürlər sisteminə malik olur ki, bu da ifadəsini həmin dünya modeli anlayışında tapır. Mifik dünya modeli özünün tam ifadəsini heç də hansısa bir mətndə tapa bilmir. Onun həmin ayrı-ayrı mətnlər şəklində yalnız sonradan bərpası mümkündür. Mifoloji dünya modelinin elementləri açıq və ya gizli şəkildə folklor janrında, mərasimlərdə, maddi-mədəniyyət nümunələrində qorunur. Mifoloji dünya modelini şərtləndirən təfəkkür tipi elmi ədəbiyyatlarda “məntiqə qədərki” (Levi-Brül), “mifopoetik” , “kosmoloji” (V.Toporov) və başqa adlar əski model sayılaraq “yuxarı”, “orta” və “aşağı” dünyalar arasında əlaqə çay vasitəsilə gerçəkləşdirir.

Dünyanın kosmoloji modelinin təsvirini verən kosmoqonik mif mətnlərinin başlıca məzmunu, nizamlayıcı kosmik başlanğıcla dağıdıcı xaotik başlanğıcın mübarizəsi, aləmlərin yaradılması və s. təşkil edir.

**İş «D»: «Peşəkar təhkiyəçilik ənənəsinin epik janrlarda özünəməxsusluğu»**

İcraçı: dosent K.F.İslamzadə

Mərhələ I: **«Xalq nəsrində janrlaşma»**

Elmi tədqiqat işində tarixi poetika tərəfindən təqdim olunan üsul və metodlardan yararlanmaqla epik növün təkamülü izlənilmişdir. Xalq nəsrinə aid janrların sadədən mürəkkəbə, kiçik həcmlidən böyük həcmliyə doğru inkişafı tədqiq edilməklə müəyyən ümumiləşdirmələr aparılmışdır. Janrdan-janra transformasiyanın necə baş verdiyini göstərmək üçün obyekt kimi «İnşaat qurbanı» və «Üç qardaş» süjetləri götürülmüşdür.

«İnşaat qurbanı» süjetinin eyni adlı mərasimlə əlaqəsi aşkar edilmiş, bu arxaik adətlə bağlı dünya folklorunda rəvayət, əfsanə, epik nəğmə, deyim və s. janrlarda yaranmış nümunələr müqayisəyə cəlb olunmuşdur. Beləliklə, janrdan-janra keçid nümayiş etdirilmişdir.

Eləcə də «Üç qardaş» süjetinin mənşəyi, onun ailə institutu daxilində vərəsəlik hüququ ilə əlaqəsi, etnosun həyatında həlledici rol oynayan mərasimlərlə birbaşa bağlılığı kimi problemlər tədqiqata cəlb olunmuşdur. Müxtəlif janrlara aid nümunələrdə inisiasiya, su hamisinə qurban verilməsi, xəstənin oğurlanmış ruhunun ardınca cadugərin (şamanın) ruhlar aləminə səyahəti mərasimlərinə işarələrin olduğu aşkar edilmiş, onların əlamətləri diqqətə çatdırılmışdır.

Örnəklərdə qardaşlar arasındakı amansız mübarizənin səbəbi kimi uzun müddət hökm sürmüş, mirasın bölünməsində sonuncu övladın üstünlüyünü ehtiva edən minoratın, kiçik övladları mirasdan məhrum edən, torpaq və daşınmaz əmlakın böyük oğula qalmasını qanuniləşdirən mayoratla əvəz olunması göstərilmişdir. Sosial cəhətdən binəsib qalmış fərdin ideallaşdırılması «Üç qardaş» süjetli nümunələrdə ön plandadır. Eyni zamanda sözü gedən süjet üzərində qurulmuş Azərbaycan və rus nağıllarının bir

sıra variantları müqayisəli şəkildə təhlilə cəlb edilmiş, onlar arasındakı tipoloji uyğunluqlar və fərqli cəhətlər diqqətə çatdırılmışdır.

**İş «E»: «Kitabi-Dədə Qorqud»un şifahi nitqdən yazıya keçməsi və ilkin mətnlər»**

İcraçı: dosent Ü.A.Nəbiyeva

Mərhələ I: **«Kitabi-Dədə Qorqud"da birgəyaşayış prinsipləri»**

Oğuz məişət sistemi qədim dövr qəbilə və tayfa həyatına məxsus etik-estetik dəyərləri, qəhrəmanlıq tarixini, epik düşüncəsini əks etdirir. Oğuz elində hakim olan bir çox kultroloji dəyərlər birgəyaşayış prinsipləri əsasında «Kitabi-Dədə Qorqud» mətninə daxil olmuşdur. Eposda Oğuz eli bütöv bir vahiddir, özünəməxsus məişət dünyası, əxlaq qaydaları, mərasim etiqadları vardır. Eposda təsvir olunan tayfa həyatının görüntüləri ilə yanaşı birgəyaşayış prinsipləri də diqqəti cəlb edir. Oğuz elində cəmiyyətdə yaşayan hər kəsin vəzifəsi dünyaya övlad gətirmək, onu tərbiyə etmək və s. meyarlarla ölçülür.

Biz problemlə bağlı mövcud mənbələrə müraciət etmiş və maraqlı nəticələr əldə etməyə çalışmışıq.

Mənbələrdən bəlli olur ki, sivil cəmiyyətlərdə hökmdarlar oğul övladlarını hələ körpəlikdən qəhrəman, igid kimi böyütmək üçün xüsusi tərbiyə üsulları hazırlamışlar. Bu ənənə sonradan türk hökmdarları tərəfindən davam etdirilmişdir.

Elmi-tədqiqat işində qeyd olunur ki, bayram və toy oğuzların əhatə çevrəsinə görə qəbilə və tayfa düşüncəsinin epik yaddaşda yaşayan ən geniş rituallar silsiləsidir.

«Kitabi-Dədə Qorqud»da isə Oğuz elinin böyük bayramları toy, yas və s. mərasimlərin qovşağında itib batmışdır. Bu da səbəbsiz olmamışdır. Oğuz cəmiyyətində birgəyaşayış prinsiplərinin ayrı-ayrı mərasim, ayin və rituallarla zənginləşməsi estetik düşüncənin daha gerçək faktlarını önə çıxmasını şərtləndirmişdir.

**İş «Ə»: «Kitabi-Dədə Qorqud» un öyrənilmə tarixi**

İcraçı: f.ü.f.d. K.K.Həsənova

Mərhələ I: **«Kitabi-Dədə Qorqud»da peyğəmbərlər**

“Kitabi-Dədə Qorqud” dastanı Azəri türkünün qədim tarixi, adət-ənənəsi, etnik-estetik görüşləri, mifik baxışları, bir sözlə, maddi və mənəvi dünyasını bütöv şəkildə əks etdirən ensiklopedik bir əsərdir. Dastan ədəbi-bədii nümunə olmaqla yanaşı, həm də tarixi bir əsərdir. “Kitabi-Dədə Qorqud” yazıya alındığı vaxt ona İslam dini elementləri gətirilmişdir. Bunu hətta Qorqudun “Dədə” ünvanı daşıması da təsdiqləyir. “Kitabi-Dədə Qorqud”un ikinci formalaşma dövrü İslam mədəniyyəti vaxtına düşür. Dədə Qorqudun peyğəmbər zamanına yaxın tarix səhnəsinə daxil olmasını xəbər verən müqəddimədə İslami ünsürlərin bol olacağı bildirilir. Dastanda yer alan peyğəmbər adları- Məhəmməd Peyğmbər, Xızır Peyğəmbər və digər müqəddəs şəxs adları tədqiqata cəlb olunmuş, onlar haqqında ətraflı məlumatlar verilmişdir. Qaynaqlarda Qorqud Atanın “Məhəmməd peyğəmbərin yaxın dostu, ondan dərs alan və üç yüz il ondan sonraya qədər yaşayan səhabə, şirvanlıların təqdim etdikləri sultan, həm də Məhəmməd tərəfindən Dəmirqapı Dərbəndə göndərilmiş Salmani-farsinin təyin etdiyi Şeyx” olması xəbəri də vardır ki, bu da dastanın VII əsrdə yaranması fikrini ortaya qoyur. “Kitabi-Dədə Qorqud” dastanında oğuzlar İslamı qəbul edib Rəsuləleyhissəlama iman gətirdikləri üçündür ki, bütün əməllərində Allahdan sonra məhz bu müqəddəs şəxsə arxalanırlar. Abidənin on iki boyundan on birinin sonunda dualar “Günahınuzı Məhəmməd Mustafa yüzi suyına bağışlasun” “Günahınızı adı görklü Məhəmməd Mustafa hörmətinə bağışlasun! və s. şəkildə bitir. Dastanda, eyni zamanda, Nuh, Xızır, İbrahim peyğəmbərlərin də adı çəkilir və bunlarla bağlı rəvayətlərə işarə olunur. Tədqiqat işində bu və digər məsələlər geniş bəhs olunur.

## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI.

Dərc olunmuş elmi işlərin (məqalə, tezis), monoqrafiyaların, dərslik və dərs vəsaitləri haqqında məlumat

## Kitablar:

## Prof. S.H.Orucova:

1. Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda Respublika elmi konfransının materialları. Bakı: “Elm və təhsil”, 2015, 348 s. (elmi redaktor)
2. “Kitabi-Dədə Qorqud”un tərcümələri. –“Kitabi-Dədə Qorqud və Türk dünyası” Beynəlxalq elmi konfransının materialları. Bakı, 2015 (elmi redaktor)

Rəy

1. Fil.ü.e.d. X.Bəşirlinin “Bədii nəsr poetikası və folklorizm (XX əsrin əvvəli)" kitabına rəy

## Dosent E.Ə.Talıblı:

1. Orfoqrafiya-orfoepiya lüğəti. Təkmilləşdirilmiş V nəşr. Bakı, TQDK-nın nəşri, 2015, 224s., 14 ç.v.(həmmüəlliflərdə birlikdə).
2. Ədəbiyyat. Test toplusu (1994-2015-ci illər). I hissə. Bakı, TQDK-nın nəşri, 2015, 144 s., 9 ç.v.(həmmüəlliflərdə birlikdə).
3. Ədəbiyyat. Test toplusu (1994-2015-ci illər). II hissə. Bakı, TQDK-nın nəşri, 2015, 140 s., 8 ç.v.(həmmüəlliflərdə birlikdə).

Elmi redaktorluq

1.Ədəbiyyat. Qəbul imtahanına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait. TQDK tərəfindən təsdiq edilmişdir, B.: 2015, 716 s.; “Ön söz” (“redaktorlardan”), s. 5-6

2.Folklor praktikası. Bakalavr təhsil pilləsi üçün proqram. B.: “Bakı Universiteti” nəşriyyatı, 2015, 1,5 ç.v.

Rəylər

1. Ədəbiyat fənni üzrə test tapşırıqları.Ümumtəhsil müəssisələrinin 11-ci sinfi üçün vəsait.B.: TQDK – “Abituriyent” nəşri, 2015, 180 s.

**Dosent M.M.Məmmədov:**

Elmi redaktorluq

1. . 2014-cü ildə Ağaverdi Xəlilin “Folklordan fayllar :addan, andacan/ Bakı: “Elm və təhsil”, 2014 dərs vəsaitinin redaktoru

Ön söz

1. Qurbani poeziyasından seçmələr rus dilində//Anna Bartkulaşvili “Dirili Qurbani” (ruscaya tərcümələr) (ön söz). Bakı, 2014, s.3-14.

Rəy:

1. Rəssamlıq Akademiyasının “Humanitar və ictimai fənlər” kafedrasının b/m Mirə Sofiyevanın “Mifologiya” metodik vəsaitinin rəyçisiyəm.

**Dosent Ü.A.Nəbiyeva:**

Rəy:

1. İbrahimov Sanan. Qadim va orta əsrlər İran, Əfqanıstan, Tacikistan ədəbiyyatı.Bakı,’’MBM’’2015, 608 səh.

**Rəsmi opponentlik:**

**Prof. S.H.Orucova:**

1. Günay Tahirzadənin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş "Azərbaycan folklorunda gender problemi" mövzusunda dissertasiyasına rəsmi opponent. Bakı, 2015 (30 sentyabr 2015)

**Dosent E.Ə.Talıblı:**

1.Hikmət Quliyev. Azərbaycan folklorunda müdrik qoca arxetipi. 10.01.09 – Folklorşünaslıq, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2015 (18 iyun 2015-ci il)

**Dosent M.M.Məmmədov:**

1. Vəfa Musa qızı Fətullayevanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün “Bayatıların poetik-semantik xüsusiyyətləri (Naxçıvan folklor mühitindən toplanmış materiallar əsasında) “ mövzusunda təqdim etdiyi dissertasiyanın rəsmi opponenti. Bakı, 2015 (24 oktyabr 2015-ci il)

**Dosent K.F.İslamzadə:**

1. Səfa Pənah oğlu Qarayevin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş «Azərbaycan folklorunda mifoloji xaos» mövzusunda dissertasiyasına rəsmi opponent

**Məqalələr:**

**Prof. S.H.Orucova:**

1. Müasir folklorşünaslığın qayğıları, problemləri və qarşıda duran vəzifələr. Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda Respublika elmi konfransının materialları. Bakı: “Elm və təhsil”, 2015, s.14-24
2. Azərbaycan folklorunun toplanma və nəşrinin tarixi təcrübəsi və çağdaş prinsipləri. // Folklor və Etnoqrafiya. 2015. N 2 (43)
3. F.Köçərlinin təqdimatında sayaçı nəğmələri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş «Azərbaycanşünaslığın aktual problemləri» IV Beynəlxalq elmi konfransın materialları. 5-7 may 2015-ci il. Bakı, Mütərcim nəşriyyatı, s.355-358, 04, ç.v.
4. “Kitabi-Dədə Qorqud”un tərcümələri. –“Kitabi-Dədə Qorqud və Türk dünyası” Beynəlxalq elmi konfransının materialları. Bakı, 2015, s.11-15

**Dosent N.Q.Xəlilov:**

1. M.F.Axundzadə yaradıcılığı haqqında qeydlər. Filologiyanın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 7-8 may, 2015-ci il, s. 38-44

2. Qopuzun yaranması və inkişafı tarixindən –“Kitabi-Dədə Qorqud və Türk dünyası” Beynəlxalq elmi konfransının materialları. Bakı, 2015, s.109-116

3. Aşıq yaradıcılığı və yazılı poeziya. Beynəlxalq konfrans – tezis. Sumqayıt Dövlət Universiteti.16 dekabr 2015

**Dosent E.Ə.Talıblı**

1. Test tapşırığı nümunələri. Azərbaycan dili (II və III qruplar üçün). -“Abituriyent” jurnalı, 2015, №1, s.103-105

2. Bəzi test tapşırıqlarının izahı və tövsiyələr. Azərbaycan dili. – “Abituriyent”jurnalı, 2015, №2, s.61-65

3. Bəhlul Danəndə lətifələri və təsəvvüf məsələsinə dair. // “Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü” mövzusunda Respublika elmi konfransının materialları. B.: “Elm və təhsil”, 2015, s.71-83

4. H.Cavidin “Topal Teymur” dramında qadın obrazları. // Prof. P.Xəlilovunanadan olmasının 90 illik yubileyinə həsr olunmuş “Türk xalqları ədəbiyyatının aktual problemləri” mövzusunda Respublika elmi konfransının materialları. B.: 2015, s.62-68

5. Dədə Qorquddan Mahmud Kaşğariyə –“Kitabi-Dədə Qorqud və Türk dünyası” Beynəlxalq elmi konfransının materialları. Bakı, 2015, s.142-152

**Dosent M.M.Məmmədov:**

1. V.Xuluflu-120. Vəli Xuluflu 120 illik yubileyi ilə bağlı elmi sessiyanın materialları (2015). S26-32

2. Novruz mərasimində Kosa və Keçəlin daşıdığı funksiyalar /Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: "Elm və təhsil", 2015, s.110-120.

3. Folklorşünaslığımıza dəyərli töhfə// "Respublika" qəzeti, 25 oktyabr 2015-ci il, №233, s.7

4. "Dədə Qorqud kitabı"nda Musa peyğəmbər obrazı. «Dədə Qorqud və türk dünyası» mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, 2015, 152-157

**Dosent K.F.İslamzadə:**

1. Türk mifoloji və epik ənənəsində «Ata ilə oğulun qarşıdurması» süjeti //Sivilizasiya (Elmi-nəzəri jurnal) №6, 2015. Bakı, Avrasiya Universitetinin nəşri. s.56-64, 0,8 ç.v.

2. «Barmaq boyda oğlan və nəhəng» ənənəvi süjetinin mənşəyinə dair. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş «Azərbaycanşünaslığın aktual problemləri» IV beynəlxalq elmi konfransın materialları. 5-7 may 2015-ci il. Bakı, Mütərcim nəşriyyatı, s.18-20, 04, ç.v.

3. «Xeyirxah məsləhətlər» süjetli məişət nağıllarında milli-mənəvi dəyərlərin bəşəri xarakteri // «Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü» mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı, «Elm və Təhsil», 2015, s.94-102, 0,6 ç.v.

4. «Can əvəzinə can» süjeti və «Qocaların öldürülməsi» mərasiminin qovşağında yaranan boy// «Dədə Qorqud və türk dünyası» mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, 2015,157-162 s.

**Dosent Ü.A.Nəbiyeva:**

1. Türk epik düşüncəsində «Dədə Qorqud» Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı, Bakı, 2015, 60 səh.
2. Türk eposu və epik yaddaş. «Sivilizasiya» Elmi-nəzəri jurnal, №5, 2015, s.69-75

3. «Kitabi-Dədə Qorqud» eposunda düşmən obrazları. «Kitabi-Dədə Qorqud»un elm aləminə məlum olmasının 200 illiyinə həsr olunmuş «Epos və etnos» Beynəlxalq Simpoziumunun materialları, 06-07 noyabr, 2015, s.193-199
4. Oğuzlar, oğuz eli və «Kitabi-Dədə Qorqud» Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları. 2 hissədə, II hissə, 5-7 may 2015-ci il, s.332-334

5. "Kitabi-Dədə Qorqud'' və epik ənənə. «Dədə Qorqud və türk dünyası» mövzusunda Beynəlxalq Simpoziumun materialları, Bakı, 2015 ci il, 162-167 s.

**F.ü.f.d. K.K.Həsənova:**

1. Əmin Abid yaradıcılığında milli-mənəvi dəyərlərimiz. Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda Respublika elmi konfransının materialları. Bakı: "Elm və təhsil", 2015, s.14-24
2. "Kitabi-Dədə Qorqud" da ənənəvi süjetlər. «Dədə Qorqud və türk dünyası» mövzusunda Beynəlxalq Simpoziumun materialları. Bakı, 2015, 167-171 s.

## 5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ:

5.1. Respublikadaxili qrantlar – yoxdur 5.2. Beynəlxalq qrantlar – yoxdur

## 6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR

Kafedra üzvləri AMEA-nın tədbirlərində fəal iştirak edir. Prof.S.H.Orucova başda olmaqla, kafedranın müəllimləri 07 dekabr 2015-ci il tarixində AMEA-nın Folklor İnstitutunda keçirilən "Folklor və dövlətçilik" mövzusunda I Elmi Konfrasında iştirak etmişlər.

Professor S.H.Orucovanın elmi redaktorluğu ilə çap olunan "Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü" mövzusunda Respublika elmi

konfransının materialları 2015-cü il üzrə AMEA-nın mühüm nəticələrinə təqdim olunmuşdur. Bundan başqa, kafedranın müdiri prof. S.H.Orucova AMEA-nın Folklor İnstitutunun Müdafiə Şurasının üzvüdür.

## 7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.

*7.1.Elmi-texniki əməkdaşlıq.*

Azərbaycan Şifahi xalq ədəbiyyatı kafedrasının Qırğızıstan Elmlər Akademiyası ilə birgə elmi fəaliyyəti mövcuddur. Belə ki, Kafedranın doktorantı Jalə Xəlilovanın ikinci elmi rəhbəri Qırğızıstan Respublikası Elmlər Akademiyasının vitse prezidenti və Dil və Ədəbiyyat İnstitutunun direktoru A.Axmataliyevdir.

*7.2. Beynəlxalq konfranslarda, konqreslərdə və simpoziumlarda iştirak:*

**Prof. S.H.Orucova:**

1. Проблемы и задачи соврименной Азербайджанской фольклористики. Журн. «Язык и культура». Вып.18, Киев 2015, с.591-598
2. "Жанры эпического рода пословицы и поговорки на русском языке" Журн. «Вестник ПГЛУ»

***Dosent* N.Q.Xəlilov:**

1. The Gopuz and saz: ancient Turkish musical instruments in Kitabi-Dede Korkut and the works of Nizami. Journal papers on Language and literature. Spring 2015. USA Southern Illinais University. S.89-101. (A kateqoriyası)

**Dosent E.Ə.Talıblı**

1.Türk dillerinde Bahtiyar Vahabzadenin 99 şiiri. Uluslararası Turk Kültürü Teşkilatı (TÜRKSOY), Ankara, Besabes Mat.Yayınçılık, 2015, 188 s. 12 ç.v. (həmtərtibçilərlə birlikdə)

**Dosent M.M.Məmmədov:**

1. Символы Тенгри//Танры в тюрскской религиозно- мифологической системе // Сборник статей V-й Международной научно- практической конференции «Тенгрианство и эпическое наследие нарадов Евразии: Истоки и собременность» (20-24 сентября 2015 г., Болгария , СОК «Камчия»), с.229-232.

**Dosent K.F.İslamzadə:**

1. «Yazıya bozu yoktur» ve ya kader haqqında konular// Asosjournal. The journal of Academic Sosial Science. Yıl 3; sayı 14-2015, s.64-72 (Türkiyə), 0,8 ç.v.
2. Методы определения некоторых сюжетов индийского происхож-дения//Вестник Томского государственного педагогического университета (научный журнал), Выпуск 6, 2015, с.244-250, 1 ç.v.

**Dosent Ü.A.Nəbiyeva:**

1. Journal Papers on languace and literature: Vol 22, No:6, Winter 2015, İmpakt Factor 1.06 «Oghuz epic tradition and «The Book of Dede Korkut» p.123-139 (A kateqoriyası)

**F.ü.f.d. K.K.Həsənova:**

1) Эпическая и мифическая харастеристика Дели Домрула в «Китаби-Деде Коркуд», Вестник ( Пят.гос.лин.ун.) 2/2015 с.217-220

## 8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

*8.1. Dövlət və özəl strukturlarda tətbiq olunmuş elmi nəticələr:*

Professor S.H.Orucovanın “Azərbaycan folklorunun rus dilinə tərcümə probleminin özünəməxsusluğu” adlı kitabı bakalavr təhsil pilləsinin “Azərbaycan şifahi

xalq ədəbiyyatı” fənninin rus bölmələrində tədrisində, eyni zamanda “Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri” kitabı bakalavr və magistratura pilləsində dərs vəsaiti kimi istifadə olunur. Dosent N.Q.Xəlilovun “Heca vəzni və aşıq sənətinin yaranma tarixi” və dosent Ü.A.Nəbiyevanın Türk epik ənənəsində “Dədə Qorqud” kitablarından filologiya fakültəsinin magistr təhsil pilləsinin “Azərbaycan aşıq yaradıcılığı”, “Kitabi-Dədə Qorqud” və dünya eposu”, “Azərbaycan aşıq şeirinin növ və şəkilləri” və bakalavr təhsil pilləsinin “Azərbaycan dastanları” fənlərinin tədrisində dərs vəsaiti kimi istifadə olunur. Professor S.H.Orucovanın elmi redaktorluğu ilə çap olunan “Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü” mövzusunda Respublika elmi konfransının materialları 2015-cü il üzrə AMEA-nın hesabatına daxil edilmişdir. Həmin kitabdan da magistratura təhsil pilləsində istifadə olunur.

*8.2. Təhsildə elmi-tədqiqat işlərinin nəticələrinin və informasiya texnologiyasının tətbiqi. Elmi-tədqiqat işlərinin səmərəliliyi:*

Elmi-tədqiqat işlərinin nəticələrindən isə magistratura bölməsində mühazirə mətnləri və dərs vəsaitləri kimi istifadə olunur.

*8.3. İstehsalatda tətbiq üçün hazır olan texnologiyalar haqqında məlumat – yoxdur.*

**9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ –** yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI:**

10.1 «Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya»nın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı»:

Kafedrada icra olunan elmi işlər və müdafiə üçün hazırlanan fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları 2009-2015-ci illərdə Elmin İnkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının yerinə yetirilməsi istiqamətində verilən töhfələrdir. Bu işlərin əhatə etdiyi mövzular folklorşünaslıqda ağ ləkələrin yerinin doldurulmasına, aktual problemlərin tədqiqata cəlb olunmasına hesablanmışdır. Dövlətin yürütdüyü mədəniyyətlərarası dialoq, inteqrasiya və

qloballaşma siyasətinin ədəbiyyatşünaslıqda öz əksini tapması ilə bağlı kafedrada komparativistika (müqayisəli ədəbiyyatşünaslıq) yönlü tədqiqatlar aparılır. Həmçinin YUNESKO-nun dünya xalqlarının qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Novruz bayramı, aşıq yaradıcılığı və Çövkan oyunu mövzuları da əsas tədqiqat istiqamətləri sırasındadır.

## 11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI

Kafedra fakültədə keçirilmiş elmi konfranslarda, simpozium və seminarlarda fəal iştirak edir. Kafedranın müdiri prof. S.H.Orucova "Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü" adlı Respublika elmi-nəzəri konfransın və eləcə də, "Kitabi-Dədə Qorqud" və Türk dünyası" adlı Beynəlxalq elmi konfranslarını təşkil etmişdir. Bundan başqa, kafedrada təşkil olunan elmi seminarda prof. Kamran Əliyevin "Açıq kitab - "Dədə Qorqud" kitabının müzakirəsi keçirilmişdir. «Filologiyanın aktual problemləri» adlı Respublika elmi-nəzəri konfransı kafedranın dosenti N.Q.Xəlilovun təşkilatçılığı ilə keçirilmişdir. Ümumi olaraq, kafedra müdiri prof.S.H.Orucova fakültədə keçirilən 5 konfransın (3 respublika, 2 beynəlxalq) təşkilat komitəsinin üzvüdür.

## 12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI

Kafedra elmi və elmi-pedaqoji kadrların hazırlanmasında fəal iştirak edir. 1 nəfər əyani: **Xanım Musa qızı Hüseynova** magistr dərəcəsinə layiq görülmüşdür.

Kafedranın müəllimi Həsənova Könül Kamil qızı elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul olunmuşdur. Kafedranın dosenti Ülkər Azad qızı Nəbiyeva 2015-

ci ilə «Türk epik düşüncəsində «Dədə Qorqud» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, müvafiq sənədləri AAK-a təqdim etmişdir. Eyni zamanda, kafedraya fəlsəfə doktoru proqramı üzrə Quluzadə Gülarə Knyaz qızı dissertanturaya qəbul olmuşdur.

Kafedrada 2015-ci ilin noyabrında Folklor İnstitutundan əlavə rəyə gəlmiş Sevinc Aşur qızı Qasımovun "Azərbaycanda Novruz ənənələri və inancları" mövzusunda yazdığı dissertasiyasına aparıcı müəssisə kimi rəy verilmişdir.

Professor S.H.Orucova Günay Elgiz qızı Tahirzadə "Azərbaycan folklorunda gender problemi" avtoreferatına rəy yazmışdır. Dosent Məmmədov Məhəmməd Məmmədsəid oğlu Əhmədli 24 oktyabr 2015-ci ildə Vəfa Musa qızı Fətullayevanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Bayatıların poetik-semantik xüsusiyyətləri (Naxçıvan folklor mühitindən toplanmış materiallar əsasında)" mövzusunda təqdim etdiyi dissertasiyanın rəsmi opponenti olmuş, Nizami Adışirinovun "Dədə Qorqud kitabı"nda epik formullar ", Səfa Qarayevin "Azərbaycan folklorunda mifoloji xaos", Hikmət Quliyevin "Azərbaycan folklorunda müdrik qoca arxetipi" dissertasiyaların avtoreferatlarına rəy vermişdir. Kafedranın dosenti K.F.İslamzadə Səfa Pənah oğlu Qarayevin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş «Azərbaycan folklorunda mifoloji xaos» mövzusunda dissertasiyasına rəsmi opponent olmuşdur.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ İXTİSASLAŞDIRILMIŞ ŞURALARIN FƏALİYYƏTİ

Kafedranın müdiri prof. S.H.Orucova AMEA-nın Folklor İnstitutunun Müdafiə Şurasının, kafedra müdiri olaraq isə fakültə Elmi Şurasının üzvüdür. N.Q.Xəlilov dekanın elmi işlər üzrə müavini, dosent M.M.Məmmədov isə fakültə Elmi Şurasının elmi katibi olaraq həmin Elmi Şuranın üzvləridir. Kafedranın dosenti İslamzadə Kəmalə Faiq qızı Nizami adına Ədəbiyyat Muzeyinin Elmi Şurasının üzvüdür.

## 14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI)

Kafedranın magistr və bakalavr pillələrində oxuyan tələbələr vaxtaşırı olaraq «Azərbaycan filologiyasının aktual problemləri» adlı məcmuədə öz elmi məqalələrini çap etdirirlər. Eyni zamanda onların çıxışları, məruzə və tezisləri fakültədə buraxılan digər elmi nəşrlərdə də çap olunur. Kafedra üzrə müdafiə edən və təhsillərinə davam edən magistrantların oxuyan tələbələrin aşağıda qeyd olunan məqalələri çap edilmişdir:

1. Hümbətli Şəms. Əski türk dastanlarından bu günümüzə adqoyma mərasimi /Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda Respublika elmi konfransının materialları. Bakı: "Elm və təhsil", 2015, s. 271-281

2. Burtiyeva Məryəm. Azərbaycanda toy adət-ənənələri/ Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda Respublika elmi konfransının materialları. Bakı: "Elm və təhsil", 2015, s. 281-290

3. Rəsulova Rəbiyyə. Azərbaycan xalq şeirində meyxana janrı/ Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda Respublika elmi konfransının materialları. Bakı: "Elm və təhsil", 2015, s. 291-299

4. İsmiyeva Leyla. / Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda Respublika elmi konfransının materialları. Bakı: "Elm və təhsil", 2015, s. 300-306

Rəsulova Rəbiyyə "Azərbaycan nümunələrində milli-mənəvi dəyərlərin təcəsssümü" mövzusunda "Ən yaxşı elmi tədqiqat işi" müsabiqəsində III yerə layiq görülmüşdür.

## 15. 2015-ci İLDƏ HANSI AVADANLIQLARININ ALINMASINA EHTİYAC DUYULUR (ADI, ALINACAQ AVADANLIQLARININ SAYI, TƏXMİNİ QİYMƏTİ, manatla):

Kafedrada tədrisin və elmi–tədqiqat işlərinin yüksək səviyyədə keçirilməsini təşkil etmək üçün kafedranın aşağıdakı texniki avadanlıqla təhcizatına ehtiyac vardır: internet

xəttində davamlı işləməyə imkan verən kompüter, skaner, lazerli printerə, surətçıxarma və faks xidmətinə ciddi ehtiyac vardır. Kafedra üzvlərinin normal işləməsi üçün otağın kondisionerə və ayrıca dərs keçilməyən iş otağına xüsusi ehtiyac vardır.

**16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR**

Kafedrada aparılan elmi işlər folklorşünaslığımızı zənginləşdirir. Burada əldə edilən nəticələrin yekunları dərslik, dərs vəsaiti və Elmlər Akademiyasının nəşr etdiyi «Azərbaycan ədəbiyyatı tarixi» çoxcildliklərində istifadə oluna bilər. Bundan əlavə, kafedra «Azərbaycan folklorşünaslığı tarixi» monoqrafiyasını və «Azərbaycan dastanları», "Azərbaycan folkloru" (rus bölməsi üçün) adlı dərs vəsaitlərini nəşrə hazırlamağı planlaşdırır. Tədqiqat işinin materiallarından gələcəkdə bu əsərlərin nəşrə olunması prosesində istifadə edilməsi nəzərdə tutulmuşdur. Hər il keçirilən folklordan tədris təcrübəsində toplanmış materiallar kafedrada qorunub saxlanılır və onların seçmə nümunələri «Folklorşünaslıq məsələləri» jurnalında çap olunur.

Kafedra təklif edir ki, elmi tədqiqat işləri əsasında hər il ayrıca nəşrlər hazırlansın və tələbələr onlardan əlavə dərs vəsaiti kimi istifadə etmək imkanına yiyələnsinlər.

**Azərbaycan şifahi xalq ədəbiyyatı**
**kafedrasının müdiri: _______________prof.S.H.Orucova**